**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**FƏLSƏFƏ VƏ HÜQUQ İNSTİTUTU**

*Əlyazması hüququnda*

**SƏADƏT SƏMƏD QIZI NOVRUZOVA**

# CİNAYƏT PROSESİNDƏ ŞƏXSİYYƏTİN HÜQUQLARININ TƏMİNATI ƏDALƏT MÜHAKİMƏSİNİN MƏQSƏDİ KİMİ

İxtisas: 5612.01 – Cinayət prosesi, kriminalistika, məhkəmə ekspertizası, əməliyyat-axtarış fəaliyyəti

Hüquq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2016**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Hüquq İnstitutunun "Cinayət hüququ və cinayət prosesi" şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər**: **Cavanşir İslam oğlu Süleymanov**
hüquq üzrə elmlər doktoru

**Rəsmi opponentlər:** **Midhəd Seyidəhməd oğlu Qəfərov**
hüquq üzrə elmlər doktoru

**Asif Xanoğlan oğlu Qədirov**
hüquq üzrə fəlsəfə doktoru, dosent

**Aparıcı təşkilat:** **AMEA İnsan hüquqları İnstitutu**

Hüquq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın müdafiəsi 28 aprel 2016-cı il tarixdə saat $14^{00}$-da Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Hüquq İnstitutunun nəzdində FD.01.103 saylı Dissertasiya Şurasının iclasında keçiriləcək.

**Ünvan**: AZ 1143, Bakı şəhəri, Hüseyn Cavid pr. 115, Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə və Hüquq İnstitutu, IX mərtəbə, konfrans zalı.

Dissertasiya işi ilə Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi elmi kitabxanasında tanış olmaq olar.

Avtoreferat "18 " mart 2016-cı il tarixdə göndərilmsişdir.

**FD.01.103 Dissertasiya Şurasının**
**elmi katibi, h.ü.f.d., dosent** **X.Ə.BAYRAMZADƏ**

## İŞIN ÜMUMİ SƏCİYYƏSİ

**Tədqiqat mövzusunun aktuallığı.** Dissertasiya işi cinayət prosesində daim aktual olan bir mövzuya – cinayət mühakimə icraatında şəxsiyyətin hüquqlarının təmini problemlərinə həsr olunmuşdur. İnsan və vətəndaş hüquq və azadlıqlarının, onların şərəf və ləyaqətinin cəmiyyət və dövlət üçün ali dəyər olması həm İnsan hüquqlarına dair ümumdünya Bəyannaməsində və digər beynəlxalq hüquq aktlarında, həm də müasir demokratik, hüquqi dövlətlərin əsas qanunlarında, o cümlədən Azərbaycan Respublikası Konstitusiyyasının 12-ci maddəsində birbaşa təsbit olunmuşdur. Qeyd olunan bəşəri zərurət cəmiyyət həyatının istənilən sferasına, ictimai münasibətləri tənzimləyən hüquq normalarının yaradıcılıq, tətbiq və mühafizə praktikasına, xüsusən, insan hüquq və azadlıqlarının daha ciddi pozuntuları potensialına malik olan cinayət-mühakimə icraatı sferasına sirayət edir. Çağdaş dövrdə cinayətkarlığın həm dünya, həm də konkret ərazi miqyasında yüksək səviyyədə olması, vətəndaşların cinayətkar qəsdlərdən qorunması zərurəti, cinayət təqibi zamanı insanların qanunsuz məsuliyyətə, əsassız prosessual məcburiyyətə məruz qalmasını qarşılamaq tələbi mövcud cinayət-prosessual qanunvericiliyin təkmilləşdirilməsini Azərbaycan Respublikasında hələ başa çatmayan məhkəmə-hüquq islahatlarının vacib məsələlərindən birinə çevirmişdir.

Bu mənada cinayət prosesində şəxsiyyətin prosessual vəziyyətinin nəzəri və təcrübi problemləri cinayət-prosessual hüquq elminin və fəaliyyətinin diqqət mərkəzində olan məsələlərdən hesab olunur. Cinayət prosesi sferasına cəlb olunan insanların hüquq və qanuni mənafelərinin təmin olunması problemi hər hansı keçmiş dövrlə müqayisədə hazırda daha yüksək aktuallığa malikdir və ədalət mühakiməsi orqanlarının ən vacib vəzifələrindən biri kimi çıxış edir.

Cinayət prosesində şəxsiyyətin hüquqları və qanuni mənafelərinə, onların təmin olunmasına dair əxlaqi, dini, elmi-nəzəri və s. yanaşmaların, baxışların, hüquq normalarının tarixi qədimdir. Dünya ölkələrinin hüquq yaradıcılığı və hüquqtətbiqetmə sahələrinin bütün sferaları kimi, bu sferada da sivilizasiyanın ilk qanunlarından (Hammurapi, Manu, XII cədvəl və s.) müasir normativ bazanın formalaşmasınadək təzadlı tarixi inkişaf yolu keçmişdir. Bununla belə, cinayət prosesində şəxsiyyətin hüquqları problemi ötən əsrin ortalarından başlayaraq nəzəriyyədə daha geniş tədqiqat obyektinə çevrilmiş, sovet qanunvericiliyində şəxsi mənafeləri ikinci plana keçirən, humanist, demokratik dəyərlərə arxa çevirən məqamlar pislənmiş, onların aradan qaldırılması üçün çoxsaylı təkliflər edilmişdir. Keçmiş və mövcud prosessual qanunvericiliklərin müqayisəsindən göründüyü kimi, bu

təkliflərin xeyli hissəsi həyata vəsiqə almışdır. Azərbaycan Respublikasının qüvvədə olan cinayət-prosessual qanunvericiliyi demokratik və humanist başlanğıclarına, prinsip və normalarına görə dünyanın inkişaf etmiş dövlətlərinin analoji qanunvericiliyindən heç də geridə qalmır. Xüsusən, cinayət prosesi iştirakçılarının hüquqi vəziyyəti, hüquqlarının təminat mexanizmləri yüksək təqdirə layiqdir. Bəs praktikada necədir? Qanunvericilikyə edilən müsbət keyfiyyət dəyişiklikləri təcrübədə öz əksini necə tapır? Mövcud təcrübə keçmişdən ciddi surətdə fərqlənirmi? Problemlər nədən ibarətdir və necə həll olunmalıdır? Bütün bu suallar tədqiqat mövzusunun aktuallığına, şübhəsiz, dəlalət edir.

Hüquqtətbiqetmə fəaliyyətinə aid olduğu üçün cinayət prosesi nəzəriyyəsi hər bir müddəasında, şübhəsiz, təcrübəyə istinad etməlidir. Elmin vəzifəsi eyni zamanda yalnız təcrübəni öyrənib sistemli biliklər halına salmaqdan ibarət deyildir. Elm sivilizasiyanı irəli aparan mühərrikdir. Hər bir elm sahəsi bu vəzifəni onun üzərinə düşən hissədə yerinə yetirmirsə, onun nə nəzəri, nə də təcrübi əhəmiyyətindən söhbət gedə bilməz.

Aparılan sorğu və tədqiqatlar cinayət-mühakimə icraatı sferasında insan hüquqlarının pozulması hallarının, prosessual formalardan kənarlaşma faktlarının hələ də davam etdiyini göstərir. Bu pozuntuların səbəblərini müəyyən etmək çətin olmadığı kimi, onların aradan qaldırılmasının mürəkkəb problem olmasını yəqin etmək də çətin deyildir. Pozuntuların mövcudluğu milli, mənəvi, əxlaqi, mədəni, intellektual və s. amillər ilə şərtlənir və onların aradan qaldırılması yalnız həmin amillərin tədricən dəf olunması yolu ilə mümkündür. Bu prinsipləri rəhbər tutaraq dissertasiya işinin mövzusu kimi, cinayət prosesində şəxsiyyət hüquqları problemi seçilmişdir. Tədqiqata başlamazdan öncə qarşıya hazırda olan planla müqayisədə daha geniş araşdırma niyyətləri qoyulmuşdu. Lakin, bir tərəfdən, fəlsəfə doktoru dissertasiyasının həcmi ilə bağlı müəyyən olunmuş limitlər, digər tərəfdən, bu sahədə mövcud elmi-nəzəri ədəbiyyatın problemin aktuallğı ilə müqayisədə xeyli azlıq təşkil etməsi həmin niyyətləri müəyyən qismdə realizə etməyə imkan vermişdir. Xüsusən, dissertasiyanın həcm limiti cinayət prosesinin bütün iştirakçılarının hüquqi vəziyyətini araşdırmağa imkan verməmiş, tədqiqat zaman yalnız əsas prosessual fiqurların vəziyyətinin tədqiqi ilə məhdudlaşmaq məqsədəuyğun sayılmışdır.

**Problemin elmi işlənilmə səviyyəsi.** Tədqiqat mövzusunun müxtəlif cəhətləri ilə bağlı istər sovet hüquq ədəbiyyatında, istərsə də respublikamızın müstəqillik qazanmasından sonra müəyyən elmi işlər, monoqrafiyalar yazılmış, kütləvi elmi məcmuələrdə məqalələr işıq üzü

görmüşdür. Son illərdə respublikamızda bu mövzunun müəyyən aspektləri üzrə bir neçə dissertasiya işi də müdafiə olunmuşdur. 2006-cı ildə E.M.Xəlilovun "Azərbaycan Respublikasının yeni cinayət prosessual qanunvericiliyi aspektində cinayət mühakimə icraatında təqsirləndirilən şəxsin hüquqlarının təminatı", 2007-ci ildə T.F.Rəcəbovanın "Cinayətin istintaqı zamanı şəxsiyyətin hüquqlarının təminatı", 2008-ci ildə N.E.Məmmədovanın "İbtidai araşdırmada təqsirləndirilən şəxsin müdafiə hüququnun təmin edilməsi", 2009-cu ildə M.S.Qəfərovun "Azərbaycan Respublikasının cinayət prossesində şəxsiyyətin hüquqi vəziyyəti və onun təminatı problemləri" mövzularında olan dissertasiya işləri bunlara aiddir. Lakin qeyd olunan elmi işlərdə müəlliflərin əsas diqqəti nəzəri problemlər ətrafında cəmlənmiş, mövcud prosessual qanunvericiliyin praktikada tətbiqi təcrübəsi, cinayət prosesi sferasına cəlb olunan insanların hüquq və azadlıqlarının pozulması halları, bunların səbəbləri, aradan qaldırılma yolları ilə bağlı məsələlər konseptual səviyyədə tədqiq olunmamışdır.

Dissertasiya tədqiqatı zamanı sovet hakimiyyəti illərində yazılmış çoxsaylı elmi-doktrinal mənbələrə də müraciət olunmuşdur. Lakin bunların yalnız bir qismində şəxsiyyət hüquqlarına kompleks yanaşmaya rast gəlinir. Əksər əsərlər cinayət prosesinin ayrı-ayrı iştirakçılarının, xüsusən, şübhəli və təqsirləndirilən şəxsin hüquqi vəziyyətinə həsr olunmuş, cinayət prosesində şəxsiyyət və şəxsiyyət hüquqları kimi problemlər kompleks halında tədqiq edilməmişdir. Şəxsiyyət hüquqları və onların təminatları ilə bağlı keçmiş qanunvericiliyin qüsur və boşluqları ayrı-ayrı məsələlərə münasibətdə qeyd olunmuş, müvafiq dəyişikliklər edilməsi təklifləri irəli sürülmüşdür. Lakin bu əsərlər arasında norma yaradıcılığı və norma tətbiqi proseslərinə müqayisəli yanaşma metodu əsasında tədqiqat aparan, qüsurları qanunvericilikdə deyil, təcrübədə axtaran, dəyişikliklərin qanunda deyil, təcrübədə zəruri olmasını əsaslandıran nümunələr azdır. Hətta son illərdə yazılan bir sıra əsərlərdə də sovet ənənələri izlənilir, müəlliflərin yalnız nəzəri mənbələr üzərində çalışması, təcrübədən uzaq düşməsi özünü büruzə verir.

Tədqiqat zamanı son illərdə Azərbaycanın elmi-kütləvi nəşrlərində dərc olunmuş, cinayət prosesində şəxsiyyət hüquqları probleminə toxunan elmi məqalələr nəzərdən keçirilmişdir. Bir sıra məqamlar istisna olunmaqla, bu işlərin böyük qismi qanunvericilik normalarının şərh və təfsiri, milli və beynəlxalq hüququn müqayisəsi, keçmiş və mövcud qanunvericiliyin müqayisəli təhlili və bu kimi məsələlərə həsr olunmuşdur. Təcrübənin öyrənilməsi, normativ baza ilə müqayisəsi, uyğunsuzluqların aşkar edilməsi cəhdləri nadir hallarda rast gəlinir.

**Tədqiqatın obyekti və predmeti.** Dissertasiya işinin obyektini cinayət prosesində şəxsiyyətin hüquq, azadlıq və qanuni mənafelərinin təmin olunması məsələləri, predmetini qüvvədə olan qanunvericilikdə cinayət prosesi iştirakçılarının hüquqları, onların hüquq və qanuni mənafeləri üçün qanunda nəzərdə tutulmuş təminatlar sistemi, təcrübədə bu hüquqların təmin olunma vəziyyəti, qanunvericilik normaları ilə təcrübi reallıqların müqayisəsi təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya işinin əsas **məqsədi** ədalət mühakiməsinin məqsədi kimi cinayət prosesində şəxsiyyətin hüquqlarının təminatı problemini kompleks və monoqrafik səviyyədə araşdırmaqdan ibarətdir. Bu məqsədə yail olmaq üçün qarşıya aşağıdakı vəzifələr qoyulmuşdur:

– cinayət prosesində şəxsiyyətin hüquq, vəzifə və qanuni mənafelərini müəyyən etmək;

– cinayət prosesində şəxsiyyət hüquqlarının prosessual təminatlarını araşdırmaq;

– şübhəli şəxsin hüquq və qanuni mənafelərinin təmin olunması problemlərini tədqiq etmək;

– cinayət prosesində təqsirləndirilən şəxsin hüquqi statusunu müəyyənləşdirmək;

– cinayət prosesinin məhkəməyədək və məhkəmə mərhələlərində təqsirləndirilən şəxsin hüquq və qanuni mənafelərinin təmin olunması problemlərini araşdırmaq;

– cinayət prosesində müdafiəçinin iştirakı məsələlərini tədqiq etmək;

– cinayət prosesində zərər çəkmiş şəxsin və şahidin hüquq və qanuni mənafelərinin təmin olunması problemlərini üzə çıxarmaq;

– prosessual məcburiyyət tədbirlərinin tətbiqi ilə bağlı şəxsiyyət hüquqlarının müdafiəsi məsələlərini araşdırmaq;

– cinayət mühakimə icraatında prosessual-hüquqi təminatların təkmilləşdirilməsi üçün əsaslandırılmış təklif və tövsiyələr irəli sürmək.

**Tədqiqatın metodologiyası və metodları.** Dissertasiya işində sovet müəllifçilik ənənələrindən mümkün qədər imtina etmək, qərb elmi yaradıcılıq metodologiyasına üstünlük vermək xətti seçilmişdir. İşin metodologiyasında keyfiyyətə nail olmaq üçün müəllif «Elmi yaradıcılığın metodologiyası» fənni ilə yaxından tanış olmuş, Amerika və Avropanın görkəmli hüquqşünas alimlərinin rus dilində dərc edilmiş əsərlərinin tədqiqat üslübundan bəhrələnməyə çalışmışdır. Ümumiyyətlə, işdə tarixi, fəlsəfi, məntiqi, müqayisəli-hüquqi, sistemli yanaşma və sair fərdi

metodlardan istifadə olunur və bunların sintetik əlaqəsi işin ayrı-ayrı fəsillərinə münasibətdə fərqlidir. Məsələn, birinci fəsildə şəxsiyyətin cinayət prosessual statusunu müəyyən edərkən fəlsəfi, məntiqi, sistemli yanaşma metodları daha səciyyəvidirsə, ikinci fəsildə cinayət prosesinin ayrı-arı iştirakçılarının hüquqi vəziyyəti təhlil olunarkən müqayisə metoduna daha intensiv surətdə müraciət edilir. Yaxud üçüncü fəsildə deduktiv metodun rolu daha qabarıqdır.

**Tədqiqat işinin nəzəri əsasını** son altmış ildə rus və azərbaycan dilində dərc olunmuş namizədlik və doktorluq dissertasiyaları, monoqrafiyalar, ali məktəblər üçün dərsliklər, kommentariyalar, dərs vəsaitləri, elmi məqalələr təşkil etmişdir.

Tədqiqatın məqsədlərinə nail olmaq üçün Azərbaycan ərazisində müxtəlif tarixi dövrlərdə qüvvədə olmuş prosessual qanunlar (Çar Rusiyasının 1864-cü il CMİN, sovet dövrünün Cinayət-Prosessual məcəllələri), onların yaranma və inkişaf yolu, birinin digərinə təsiri öyrənilmiş, həmin qanunların tədqiqi rakursunda yazılmış elmi əsərlər, o cümlədən elmi işlər, monoqrafiyalar, görkəmli alimlərin məqalələri nəzərdən keçirilmiş, qüvvədə olan cinayət-prosessual qanunvericiliyin qəbulunadək aparılmış layihə işlərinə diqqət yetirilmiş, bu qanun bir sıra dövlətlərin analoji qanunları ilə müqayisə olunmuşdur.

**Tədqiqatın normativ bazasını** insan hüquqlarının müdafiəsi sahəsində beynəlxalq hüquq, Azərbaycan Respublikasının Konstitusiyası, qüvvədə olan və keçmiş Cinayət-Prosessual Məcəlləsi, Cinayət Məcəlləsi, cinayət mühakimə icraatına aidiyyatı olan başqa qanunlar (Prokurorluq haqqında, Polis haqqında, Əməliyyat-axtarış fəaliyyəti haqqında, Cinayət prosesində iştirak edən şəxslərin dövlət müdafiəsi haqqında və s), Azərbaycan Respublikası Konstitusiya məhkəməsinin cinayət-prosessual qanunvericiliyin tətbiqi ilə bağlı qərarları, prokurorluq və daxili işlər orqanlarının normativ aktları, Ali Məhkəmə Plenumunun cinayət-prosessual qanunvericiliyin tətbiqinə dair qərarları təşkil etmişdir.

**Tədqiqatın empirik bazası.** Tədqiqatın məqsədləri üçün təcrübi işçilər, xüsusən prokurorluq və daxili işlər orqanlarının müstəntiqləri, cinayət prosesində iştirak edən vəkillər, hakimlər, əvvəllər cinayət məsuliyyətinə cəlb olunmuş şəxslər, cinayətdən zərər çəkmiş şəxslərlə sorğular aparılmış, Azərbaycan Respublikasının apellyasiya məhkəmələrinin, ağır cinayətlərə dair işlər üzrə məhkəmələrin, rayon məhkəmələrinin arxivində saxlanılan çox sayda cinayət işləri nəzərdən keçirilmiş, sorğu və tədqiqatlar nəticəsində Azərbaycanda cinayət prosesi gerçəklikləri barədə müəllifin mülahizələri yaranmışdır.

Tədqiqat zamanı istintaq və məhkəmə təcrübəsindən, xüsusən praktik işçilər və əvvəllər cinayət prosesi iştirakçısı olmuş şəxslərlə aparılmış sorğu cavablarından geniş istifadə olunmuşdur. İşdə yalnız sorğu edilən şəxslər tərəfindən hamılıqla təsdiq olunan hallara istinad edilir. Sorğu edilən hər bir şəxsdən qoyulmuş konkret suallara təsdiq və ya inkar formsında, yaxud digər formada cavab vermək xahiş olunmuş və onun digər şəxslərin ondan əvvəl verdiyi cavablara münasibəti şifahi söhbət şəklində aydınlaşdırılmışdır.

**Dissertasiyanın elmi yeniliyi onunla müəyyən olunur ki,** işdə Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyində şəxsiyyət hüquqlarını, onların təminatlarını nəzərdə tutan hüquq normalarının praktikada realizə vəziyyəti, onların pozuntusu halları və təmayülləri, bu halları doğuran səbəblər tədqiq edilmiş, onların aradan qaldırılması üçün dünyann qabaqcıl ölkələrinin təcrübəsinə, doktrinal mənbələrə, peşəkar praktik işçilərin rəylərinə əsaslanan həlli mexanizmləri təklif olunmuşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar aşağıdakılardır:**

- şübhəli və təqsirləndirilən şəxsin qanunvericilik anlayışlarında dəqiqləşdimə aparılması təklif olunur;
- şübhəli şəxs qismində tutmanın əsası kimi CPM-in 148.1-ci maddəsində göstərilən «digər məlumatların» əsassız geniş təfsir olunması hallarının aradan qaldırılması üçün qanunun göstərilən maddəsində dəyişiklik edilməsi zərurəti əsaslandırılır;
- əsassız tutulan, sübut edilmədiyinə görə azad edilən şəxslərin hüquqlarının müdafiəsinə dair mexanizm təklif olunur;
- müvəqqəti saxlama yerlərində şübhəli şəxslərlə bağlı yol verilən hüquq pozuntularının aradan qaldırılması üçün təkliflər irəli sürülür;
- CPM-in 318.3-cü maddəsində edilmiş dəyişikliyin praktikada ikili standartlara yol açdığı üçün qeyri-məqbul olduğu əsaslandırılır.
- CPM-in 223-cü maddəsinə təqsirləndirilən şəxs qismində cəlb etmə barədə qərar çıxarmanın əsassız yubadılmasını yolverilməz edən yeni müddəa əlavə edilməsi təklif edilir;
- CPM-in 92.3.2-ci maddəsinin təqsirləndirilən şəxsin psixi xəstəliyinə münasibətdə eyni cür tətbiqinə nail olmaq üçün maddənin dispozisiyasında «anlaqlılığı istisna etməyən psixi pozuntu» müdafiəçinin iştirakını məcburi edən hallar sırasına daxil edilməsi zəruri hesab edilir;
- cinayət faktına dair məlumatların bilavasitə zərər çəkmiş şəxs və ya onun qanuni nümayəndəsi tərəfindən verilmədiyi hallarda cinayət işi başlama barədə qərarın surətinin zərər çəkmiş şəxsə göndərilməsi zəruri sayılır;

- cinayət işinin başlanılmasının rədd edilməsi barədə zərər çəkmiş şəxsə göndərilən qərarın surətində onun şikayət vermək hüququ üçün qanunda dəqiq müddət müəyyən edilməsi zəruri hesab olunur;

- dayandırılmış və ya xitam olunmuş cinayət işinin materialları ilə zərər çəkmiş şəxsi tanış etmək vəzifəsinin qanunda birbaşa nəzərdə tutulması zəruri sayılır;

- işə məhkəmə iclasında baxılan zaman şahidə öz ifadəsinin qeydiyyatı ilə tanış olmaq hüququ verilməlidir;

- şahidə əlavə dindirilməsi barədə vəsatət qaldırmaq hüququ verilməlidir;

- çağırışla əlaqədar şahidə çəkdiyi xərcin əvəzinin müəssisənin hesabından yox, dövlət vəsaiti hesabına ödənilməsi nəzərdə tutulmalıdır;

- şahidlərin onlarda olan məlumatları təqdim etmə müqabilində mükafatlandırılma mexanizmini müəyyən edən qanunvericilik aktı qəbul olunmalıdır.

**Tədqiqatın nəticələrinin nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiya işinin materialları ali məktəb tələbələri və təcrübə işçilər (müstəntiqlər, prokurorlar, hakimlər) tərəfindən cinayət prosessual hüququn bu problemi və ona dair müxtəlif səviyyəli tədris işlərinin yazılmasında, hüquq-mühafizə orqanlarının fəaliyyətində praktiki tövsiyə-sorğu mənbəyi kimi, əhalinin hüquqi maarifləndirilməsində, vətəndaşların hüquq düşüncəsi səviyyəsinin yüksəldilməsində istifadə oluna bilər.

Dissertasiyanın mövzusunu təşkil edən problemlərin nəzəri təhlili hüquqtətbiqetmə praktikası ilə üzvi vəhdət əlaqəsində aparılmışdır. Dissertasiyada edilmiş ümumiləşmələr və çıxarılmış nəticələrin hüquq yaradıcılığı fəaliyyətinin sonrakı inkişafına, hüquq qaydalarının möhkəmləndirilməsinə, məhkəmə təcrübəsinin təshih edilməsinə xidmət edəcəyi nəzərdə tutulur.

**Tədqiqat nəticələrinin aprobasiyası.** Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Hüquq İnstitutunun «Cinayət hüququ və cinayət prosesi» şöbəsində müzakirə olunmuşdur. Müəllif tərəfindən irəli sürülmüş təkliflər və elmi nəticələr Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyasında, Daxili İşlər Nazirliyinin Polis Akademiyasında müzakirə edilmiş və tədris prosessində tətbiq edilməsi məqsədəuyğun hesab edilmişdir. Müəllif ali məktəblər arası elmi-praktiki konfransda "Cinayət prosesində şahidin qanuni mənafelərinin təmini" mövzusunda məruzə ilə çıxış etmişdir. İşin müdafiəyə çıxarılan əsas müddəaları konkret qanunvericilik təklifləri formasına salınmaqla Azərbaycan Respublikasının Milli Məclisinə göndərilmiş və onların qanunvericiliyin gələcəkdə təkmilləşdirilməsi zamanı nəzərə alınacağına dair cavab alınmışdır.

Dissertasiya mövzusu üzrə respublikada və Rusiyada dərc olunan müxtəlif elmi jurnallarda müəllifin elmi məqalələri çap olunmuşdur.

**Dissertasiya işinin quruluşu.** Dissertasiya girişdən, üç fəsil və onlara daxil olan yeddi yarımfəsildən, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından, praktik işçilər arasında aparılmış rəy sorğusu nəticələrinin əks olunduğu 1 saylı əlavədən ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

**Girişdə** tədqiqat mövzusunun aktuallığı, problemin elmi işlənmə dərəcəsi əsaslandırılır, tədqiqatın məqsədləri, vəzifələri, obyekt və predmeti müəyyən edilir. Həmçinin tədqiqatın metodoloji və empirik bazası müəyyən edilir, müdafiəyə çıxarılan əsas müddəalar, alınmış nəticələrin nəzəri və təcrübi əhəmiyyəti, onların aprobasiyası xülasə edilir.

**«Cinayət-prosessual münasibətlər sferasında dövlət və şəxsiyyət münasibətlərinin hüquqi tənzimlənməsi»** adlanan birinci fəslin birinci yarımfəslində ***("Cinayət prosesində şəxsiyyətin hüquqi statusu: hüquq, vəzifə və qanuni mənafeləri anlayışı")*** şəxsiyyətin konstitusion statusu və onun sahə növü olaraq cinayət-prosessual statusu ilə bağlı məsələlər araşdırılır, şəxsiyyətin konstitusion statusunun məzmunu, onun tərkib ünsürləri tədqiq edilir. Müəllif şəxsiyyətin konstitusion statusuna ənənəvi yanaşmalara tənqidi yanaşaraq, sovet hüquq nəzəriyyəsində və hazırda bir çox müəlliflər tərəfindən fəal müdafiə olunan sxemi – statusun tərkib ünsürlərini fərqli qaydada şərh edir, konstitusion statusun ünsürləri hesab olunan vətəndaşlıq, hüquq qabiliyyəti kimi ünsürləri yeni müstəvidə nəzərdən keçirir.

Cinayət-prosessual münasibətlər sferasında şəxsiyyət dedikdə, prosesdə rolundan və iştirakının xarakterindən asılı olmayaraq, iştirakı hətta epizodik xarakter daşıyan bütün insan amilinin başa düşülməli olduğu göstərilir, qanunda «cinayət prosesinin iştirakçıları» və «cinayət prosesində iştirak edən digər şəxslər» kimi anlayışların işlədilməsi məntiqi baxımdan düzgün hesab olunmur. Müəllifin fikrincə, bunların hər ikisi faktiki olaraq eyni məna daşıyır, ona görə də ikinci ifadənin «digər subyektlər» kimi ifadə edilməsi daha məntiqlidir.

Şəxsiyyətin cinayət-prosessual statusu «şəxsiyyətin konstitusion statusundan irəli gələn və cinayət prosesinin hər bir iştirakçısının prosessual vəziyyəti üçün əsas sayılan, cinayət-prosessual hüquq üçün səciyyəvi qaydalarda təsbit olunan norma, prinsip, institut və başqa hüquqi vasitələrin konkret məqsədli, qəti nizamlı məcmuyu» kimi müəyyən edilir.

Cinayət mühakimə icraatı üçün əsas fərqləndirici xüsusiyyət ondan ibarətdir ki, başqa münasibətlər sferalarından fərqli olaraq burada şəxsiyyətin hüquqları və qanuni mənafeləri birbaşa deyil, iş üzrə həqiqətin aşkara çıxarılması yolu ilə təmin olunur. Məhz cinayətlərin üstünün açılması, təqsirkarı aşkar edib ədalətli cəza verməklə cinayət-prosessual hüquq cəmiyyətin, dövlətin, şəxsiyyətin mənafelərini cinayətkar qəsdlərdən qoruyur və vurulmuş ziyanı kompensasiya edir. Bütün bunlar cinayət-prosessual hüququn yalnız xarici tərəfini təşkil edir. Onun daxili aspektində isə, cinayət prosesi gedişində iştirakçılar arasında yaranan ictimai münasibətlər dayanır. Xarici və daxili aspektlər bir-birini qarşılıqlı olaraq tamamlayır, prosesin vahidliyini təmin edirlər. Buna hüquqi tənzimin xüsusi metodlarından istifadə yolu ilə nail olunur. Prosessual qanun şəxsləri müvafiq hüquq və vəzifələrin daşıyıcısına çevirməklə, onları cinayət mühakimə icraatı müstəvisi üzərində bərabər imkanlara malik olan fiqurlara çevirir, bu imkanların dəyərincə istifadə edilməsi üçün prosessual təminatlar müəyyən edir. Malik olduğu hüquq və vəzifələr əsasında hər bir iştirakçı özünəməxsus hüquqi vəziyyətlə səciyyələnir.

Bu yarımfəslində həmçinin şəxsiyyətin hüquq, vəzifə və qanuni mənafeləri onun prosessual-hüquqi statusunun əsas ünsürləri olaraq tədqiq edilmşidir. Prosessual qanun cinayət prosesinin bütün subyektləri üçün ümumi olan və ayrıca subyekt üçün spesifik hüquq və vəzifələr müəyyən edir. CPM-də prosesin bütün iştirakçılarının statusu, o cümlədən hüquq və vəzifələri onların adı ilə adlandırılan ayrıca maddələrdə müəyyən olunur. Demək olar ki, bütün iştirakçılara münasibətdə eyni metoddan istifadə olunur: onların hüquq və vəzifələri bəndlər üzrə sadalanır və bu bəndlərdə göstərilməyən, CPM-in başqa normalarında müəyyən olunmuş hüquq və vəzifələri həmçinin daşıdıqları göstərilir. Sonuncular cinayət mühakimə icraatının prinsiplərini müəyyən edən normalarda və prosesin ayrı-ayrı mərhələlərini tənzim edən müddəalarda öz əksini tapmışdır. Ümümiyyətlə, proses iştirakçılarının hüquq və vəzifələrinin müəyyən edilməsində yekcinslik mövcud deyildir. Onlar ya birbaşa göstərilir, yaxud digər müəyyən bir formada ifadə edilir və yaxud da subyektin iştirak etdiyi istintaq hərəkətlərini, müxtəlif prosedurları tənzim edən normaların mahiyyətindən irəli gəlir və s.

Son onilliklərdə hüquq nəzəriyyəsində, hüquq yaradıcılığı və tətbiqi praktikasında «qanuni mənafelər» anlayışından geniş surətdə istifadə olunmasına rəğmən, qeyd olunan məfhumun məzmun yükünün hələ də dəqiq ifadə olunmadığına diqqət yetirilmiş, tədqiqat nəticəsi olaraq qanuni mənafelərə aşağıdakı kimi anlayış verilmişdir. Cinayət prosessual münasibətlər sferasında qanuni mənafe – proses iştirakçılarının özləri üçün

əhəmiyyətli və ya faydalı olan nəticələr əldə etməyə yönəlmiş, hüquq norma və prinsiplərinə ümumiyyətlə zidd olmayan və ya edildiyi anda, daha doğrusu əksi sübut olunmayınca zidd hesab edilməli olmayan xahiş, tələb və iddialarda ifadə olunmuş maraqlardır.

Birinci fəslin ***«Cinayət prosesində şəxsiyyətin hüquqlarının prosessual təminatları»*** adlanan ikinci yarımfəsli cinayət mühakimə icraatına şəxsiyyətin hüquq və azadlıqlarının prosessual-hüquqi təminatlarına dair nəzəriyyədə mövcud olan mövqelərin müqayisəli təhlilinə həsr olunmaqla nəticə çıxarmağa əsas vermişdir ki, cinayət prosesində prosessual-hüquqi təminatlar dedikdə, «cəmiyyətin və dövlətin mənafeyini, şəxsiyyətin isə qanuni mənafeyini təmin etməyə yönəlmiş, cinayət prosesi subyektləri üçün müvafiq hüquq və vəzifələr, habelə bütün subyektlərin və ya konkret subyektin davranışına münasibətdə qadağalar müəyyən edən, bilavasitə prosessual qanunda və ya başqa hüquq aktında təsbit olunan qaydalar» başa düşülməlidir.

Hüquq subyektlərinin hüquq, azadlıq və vəzifələrinin realizəsi üçün qanunda xüsusi prosedurlar və müddəalar nəzərdə tutulmuşdur. Bir subyektin konkret hüquqa malik olması digər subyektin adekvat vəzifələr daşımasını diqtə edir. Konkret hüququn realizəsi ona müxalif olan konkret vəzifələrin icra olunduğu halda mümkündür. Hüquqdan istifadə hüquq sahibi və bu hüququn həyata keçirilməsində maraqlı olan qarşı tərəf arasında müəyyən ictimai-hüquqi münasibətlər doğurur. Qarşı tərəf hüquq sahibinin öz hüququndan istifadə etməsi üçün müəyyən olunmuş şərtlərə əməl etməli, daha doğrusu, onun həyata keçirilməsinə mane olan hərəkətlər etməməli və ya onun həyata keçməsi üçün tələb olunan hərəkətləri icra etməlidir. Beləliklə, hüquqların (azadlıqların) təminatları – qarşı tərəfi (adekvat vəzifələrin daşıyıcılarını) bu hüquqların realizəsi üçün normativ tələb olunan şərtlərə riayət etməsini təmin edən hüquqi vasitələr kimi müəyyən oluna bilər.

Tədqiqat işinin **«Cinayət prosesinin bəzi iştirakçılarının hüquq və qanuni mənafelərinin təminatı məsələləri»** adlanan ikinci fəsli üç yarımfəsildən ibarət olmaqla, müvafiq olaraq aşağıdakı məsələlərin həllinə hədəflənmişdir.

***«Cinayət prosesində şübhəli və təqsirləndirilən şəxsin hüquq və qanuni mənafelərinin təminatı və bu prosesdə müdafiəçinin rolu»*** məsələlərinə həsr olunmuş birinci yarımfəsildə şübhəli şəxsin qanunvericilik anlayışında mövcud olan boşluğu aradan qaldırmaq üçün, CPM-in 90.1.2-ci maddəsinin mətninin «bu Məcəllənin 148.2-148.3-cü maddələrində nəzərdə tutulmuş hallarda tutulan şəxs» ifadəsi ilə tamamlanması məqsədəuyğun hesab edilmişdir.

Təcrübənin öyrənilməsi üzrə müəllif şübhəli şəxs qismində tutmanın əsası kimi CPM-in 148.1-ci maddəsində göstərilən «digər məlumatların» əsassız geniş təfsir olunması hallarının mövcudluğu qənaətinə gəlmişdir. Hesab olunur ki, praktikada baş verən özbaşınalıq hallarının qarşısını almaq üçün prokurorluq və daxili işlər orqanlarının daxili təlimatlarında bu məsələ ciddi surətdə reqlamentə salınmalıdır.

Qanunda əsassız tutulan, təqsiri sübut edilmədiyinə görə azad edilən şəxslərin hüquqlarının müdafiəsinə dair mexanizm müəyyən olunmamışdır. Şəxs tutulma dövründə tutulmanın əsassız olması ilə bağlı hansısa orqana müraciət etmək, yaxud azad edildikdən sonra ona vurulmuş zərərin əvəzini tələb etmək hüququna malik deyildir. Müəllifin fikrincə, kifayət əsaslar olmadan şübhəli şəxs qismində tutulmuş şəxslərin hüquqlarının müdafiəsini nəzərdə tutan normaların CPM-ə daxil edilməsi zəruridir.

Qanunvericilikdə təqsirləndirilən şəxsin anlayışının dəqiqləşdirilməsi üçün, onun aşağıdakı kimi ifadə olunması məqsədəuyğun hesab olunmuşdur: təqsirləndirilən şəxs – cinayət törədilməsində təqsirliliyinə dəlalət edən ilkin sübutların məcmusu əsasında barəsində müstəntiq tərəfindən təqsirləndirilən qismində cəlb edilməsi barədə əsaslandırılmış qərar çıxarılan, yaxud ibtidai istintaqın aparılmadığı hallarda həmin sübutlar əsasında birbaşa məhkəməyə verilən şəxsdir.

Təqsirləndirilən şəxs qismində cəlb etmə üçün sübutların kifayət olması və ya qüvvədə olan CPM-in 223.1-ci maddəsinin mənasında ilkin sübutların məcmusu dedikdə, müstəntiqin daxili inamına görə şəxsin təqsirliliyinin yüksək ehtimallılığına dəlalət edən, ağlabatan mülahizə yaradan sübutlar dəsti başa düşülməlidir.

14 iyun 2005-ci il tarixli qanunla CPM-in 318.3-cü maddəsində edilmiş dəyişiklik praktikada qanunsuzluq hallarına yol açdığı üçün, qeyri-məqbul hesab edilmişdir.

CPM-in 92.3.2-ci maddəsinin təqsirləndirilən şəxsin psixi xəstəliyinə münasibətdə eyni cür tətbiqinə nail olmaq üçün, maddənin dispozisiyasında «anlaqlılığı istisna etməyən psixi pozuntu» müdafiəçinin iştirakını məcburi edən hallar sırasına daxil edilməlidir.

Təcrübə göstərir ki, bəzi müstəntiqlər ittihamı elan etdikdən sonra təqsirləndirilən şəxsi qısa formada dindirir, dindirmə protokolunda isə göstərirlər ki, təqsirləndirilən şəxs əvvəllər verdiyi bütün ifadələri təsdiq edir. Belə hallar təqsirləndirilən şəxsin müstəqil prosessual fiqur kimi ifadə və izahatlar vermək hüququna zidd olduğu üçün, prosessual-hüquq pozuntusu hesab olunmalıdır.

Qüvvədən düşmüş CPM-in 207-ci maddəsində şəxsi müayinə zamanı şəxsin şərəf və ləyaqətini alçaldan və ya səhhəti üçün təhlükəli olan

hərəkətlərə yol verilməsi qadağan edilmişdi. Qüvvədə olan CPM-in 238-ci maddəsində, təəssüf ki, belə bir norma bilavasitə nəzərdə tutulmamışdır. Doğrudur, bunlar ümumi tələb kimi CPM-in 13 və 15-ci maddələrinin müddəalarından irəli gəlir. Bununla belə, hesab edilir ki, CPM-in 238-ci maddəsində həmin prinsiplər şəxsi müayinənin xüsusiyyətləri nəzərə alınmaqla bilavasitə nəzərdə tutulmalıdır.

Yarımfəsildə həmçinin müdafiəçinin prosessual hüquqi statusu, onun prosesdə iştirakının ittihamdan müdafiənin qurulmasında rolu, müasir reallıqda vəkillik institutunun vəziyyəti, müdafiə institutunun təkmilləşdirilməsi yolları tədqiq olunmuşdur.

Fəslin ikinci yarımfəsli **«Zərər çəkmiş şəxsin hüquq və qanuni mənafelərinin təminatı»** adlanır. Cinayət prosesində şəxsiyyətin hüquqlarının təmininə həsr olunmuş əksər işlərdə əsas diqqət şübhəli və təqsirləndirilən şəxsin üzərində cəmləşir, bununla da, prosesin digər mərkəzi fiquru – zərərçəkmiş şəxs bir növ kölgədə qalır. Müəllif tərəfindən aparılmış tədqiqatlar təcrübədə cinayətdən zərər çəkmiş şəxslərin hüquq və qanuni mənafelərinin təmin edilməsi ilə bağlı bir sıra boşluqların mövcud olması qənaətinə gəlməyə əsas vermişdir. Belə halların aradan qaldırılması üçün tərəfimizdən bir sıra qanunvericilik təklifləri formulə edilmişdir. Xüsusən:

- cinayət faktına dair məlumatların bilavasitə zərər çəkmiş şəxs və ya onun qanuni nümayəndəsi tərəfindən verilmədiyi hallarda cinayət işi başlama barədə qərarın surətinin zərər çəkmiş şəxsə göndərilməsi zəruri hesab olunmuş;

- cinayət işinin başlanılmasının rədd edilməsi barədə zərər çəkmiş şəxsə göndərilən qərarın surətində onun şikayət vermək hüququ üçün qanunda dəqiq müddət müəyyən edilməsi (keçmiş qanunvericiliikdə nəzərdə tutulduğu qaydada) zəruri sayılmış;

- dayandırılmış və ya xitam olunmuş cinayət işinin materialları ilə zərər çəkmiş şəxsi tanış etmək vəzifəsinin qanunda birbaşa nəzərdə tutulması təklif olunmuşdur.

İkinci fəslin ***«Cinayət prosesində şahidin hüquqi vəziyyəti»*** adlanan üçüncü yarımfəsli cinayət prosesində şahidlərin cinayət-prosessual hüquqi statusunun qabaqcıl dünya təcrübəsinə uyğunlaşdırılması, şahidlərin prosesdə iştirakının səmərəliliyinin yüksəldilməsi, şahidlərin prosesdə iştirak maraqlarının, təhlükəsizliyinin təmin olunması və digər məsələlərə həsr olunmaqla aşağıdakı nəticələrə gəlməyə əsas verir.

Qüvvədə olan qanunvericilikdə işə məhkəmə iclasında baxılan zaman şahidə öz ifadəsinin qeydiyyatı ilə tanış olmaq hüququ verilməlidir.

Cinayət prosesində şahidə əlavə dindirilməsi barədə vəsatət qaldırmaq hüququnun verilməsini cinayət prosesində obyektiv həqiqətin müəyyən edilməsi baxımından məqsədəuyğun hesab olunur.

Şahidin zərurət olmayan hallarda, gecə vaxtı, bayram və istirahət günlərində dindirilməsinin qadağan edilməsi barədə normanın cinayət-prosessual qanunvericilikdə nəzərdə tutulması məqsədəuyğundur.

Çağırışla əlaqədar şahidə çəkdiyi xərcin əvəzinin müəssisənin hesabından yox, dövlət vəsaiti hesabına ödənilməsi nəzərdə tutularsa, onun iş yerində məlum problemlərin yaranması istisna oluna bilər. Həm də bu halda şahidi çağıran şəxs çağırışa daha ciddi yanaşacaq və əsassız çağırışların sayı azalacaqdır.

Xarici dövlətlərdə yaşayan şahidin çağırılması qaydası, onlara qarşı məcburi gətirmə, pul tənbehi tətbiq etmə, ifadə verməkdən imtina etmə və ya bilə-bilə yalan ifadə vermə məsələlərinin cinayət-prosessual qanunvericilikdə ayrıca norma çərçivəsində həll olunması ibtidai araşdırmanın operativliyini təmin etmək baxımından məqsədəuyğun hesab olunur.

Şahidlərin onlarda olan məlumatları təqdim etmə müqabilində mükafatlanldırılma mexanizmini müəyyən edən qanunvericilik aktının qəbul edilməsi müasir dövrün tələbləri baxımından məqsədəuyğun sayılır.

Tədqiqat işinin «**Cinayət prosesində şəxsiyyətin hüquq və qanuni mənafelərinin müdafiə mexanizmlərinin təkmilləşdirilməsi məsələləri**» adlanan üçüncü fəsli iki yarımfəsli (“Cinayət prosesində şəxsiyyətin hüquqlarının müdafiəsi: prosessual məcburiyyət tədbirlərinin tətbiqi kontekstində” və “Cinayət mühakimə icraatında prosessual-hüquqi təminatların təkmilləşdirilməsi imkanları”) əhatə edir. Yarımfəsillərin adlarına uyğun olaraq burada aşağıdakı istiqamətlərdə tədqiqat aparılır: prosessual məcburiyyət tədbirlərinin tətbiqi ilə bağlı şəxsiyyət hüquqlarının müdafiəsi məsələləri; cinayət mühakimə icraatında prosessual-hüquqi təminatların təkmilləşdirilməsi məsələləri.

İşdə cinayət prosesində iştirak edən şəxslərin hüquq və qanuni mənafelərinin təmini baxımından, konkret məcburiyyət tədbirinin tətbiqində qanun prosedurlarına ciddi əməl edilməsinə mühüm əhəmiyyət verilir. Hesab edilir ki, bu cür prosedurlara riayət edilməsi, bir tərəfdən, lazımi nəticəyə doğru aparırsa, digər tərəfdən, əsassız məcburiyyəti istisna edir, məcburiyyətin yalnız cinayət mühakimə icraatının vəzifələrinə xidmət edən dərəcədə tətbiq olunmasını təmin edir.

Proses iştirakçılarını əsassız məcburiyyət tədbirlərindən mühafizə etmənin əsas şərtlərindən biri qanunda müəyyən prosessual vəziyyət yaradan hüquqi faktın dürüst və konkret müəyyən edilməsidir. Bu müəyyənetmə,

bir tərəfdən, tədbirin praktiki tətbiqinə optimal imkan verməli, digər tərəfdən, prosessual məcburiyyətə məruz qalan şəxsin hüquqlarının izafi məhdudiyyətini istisna etməlidir.

Şəxsiyyətin hüquq və qanuni mənafelərinin təmini baxımından bütün məcburiyyət tədbirləri üçün aşağıdakı qaydalara riayət edilməsi zəruri sayılır: 1) bütün məcburiyyət tədbirlərinin əsaslandırılımış qərar əsasında tətbiqi; 2) məcburiyyət tədbirinin tətbiqi barədə qərarın barəsində bu tədbirin tətbiq edildiyi şəxsə tanış edilməsi; 3) məcburiyyət tədbirinin tətbiqi zamanı hüquq və qanuni mənafelərinə mümkün dərəcədə riayət edilməsi; 4) zəruri olduqda məcburiyyət tədbirinin tətbiqi gedişatının bütünlüklə rəsmiləşdirilməsi, yerinə yetirilən hərəkətlərin protokolda qeydə alınması və onun surətinin şəxsə təqdim edilməsi; 5) vaxt etibarı ilə uzanan məcburiyyət tədbirinin tətbiqi əsaslarının aradan qalxdığı və ya qanunla nəzərdə tutulmuş müddətinin başa çatdığı halda şərtsiz olaraq xitam edilməsi.

Cinayət mühakimə icraatında şəxsiyyət hüquqlarının təminat mexanizmlərinin gələcəkdə təkmilləşdirilməsi üçün aşağıdakı istiqamətlər prioritetli hesab edilir:

- cinayət mühakimə icraatında bir sıra şəxslərin iştirakına olan məhdudiyyətlərin aradan qaldırılması;
- şəxsin iştirakının qanunla mümkün olduğu proses mərhələlərində onun hüquqlarının daha da genişləndirilməsi;
- prosessual vəzifələrin sistemləşdirilməsi və dəqiqləşdirilməsi;
- prosessual hüquqların reallığına nail olmaq məqsədilə əlavə təminatların müəyyən olunması.

**Nəticədə** tədqiqat işinin əsas müddəaları ümumiləşdirilmiş, nəzəri və metodik tövsiyələr, qanunvericilik təklifləri xülasə edilmişdir.

**Dissertasiya işinin əsas müddəaları müəllifin aşağıdakı elmi əsərlərində dərc olunmuşdur:**

1. Гарантии прав человека в Азербайджанской Республике и в странах Европейского Содружества / Azərbaycan Respublikasında dövlət və hüquq quruculuğunun aktual problemləri. Elmi məqalələr məcmuəsi, 8-ci buraxılış. Bakı, 2004, s. 68-85.
2. Cinayət prosesində müdafiəçinin iştirakı ilə bağlı bəzi problemlər haqqında // «Azərbaycan Hüquq Jurnalı» (Elmi-nəzəri hüquq jurnalı), № 2. Bakı, 2006, s. 81-87.
3. Понятие «законных интересов» личности в уголовном процессе // “Qanun” jurnalı, № 06 (146). Bakı, 2006, s. 111-114.

4. Şəxsiyyətin hüquq və qanuni mənafelərinin prosessual-hüquqi təminatları / Azərbaycan Respublikasında dövlət və hüquq quruculuğunun aktual problemləri (Elmi məqalələr məcmuəsi), 16-cı buraxılış. Bakı, 2007, s. 340-343.

5. Cinayət prosesində şəxsiyyətin prosessual-hüquqi statusu / «Məhkəmə ekspertizası, kriminalistika və kriminologiyanın aktual məsələləri» (elmi əsərlər məcmuəsi), № 45. Bakı, 2007, s. 89-93.

6. Некоторые аспекты правового статуса защитника в уголовном процессе Азербайджанской Республике // Право и государство: теория и практика (Федеральный научно-практический ежемесячный журнал), № 7 (55). Москва, 2009, s. 111-114.

7. "Human rights and criminal-procedural coercion" // «Dirçəliş - XXİ əsr Jurnalı», 135/136. Bakı, 2009, s. 276-284.

8. Cinayət prosesində şahidin qanuni mənafelərinin təmini / «Doktorantlar və gənc tədqiqatçıların XV Respublika Elmi Konfransının materialları toplusu». Bakı, 2011, s. 359-363.

9. Şübhəli şəxsin hüquq və qanuni mənafelərinin təmin olunması // "Qanun" jurnalı, № 01 (255). Bakı, 2016, s. 85-90.

ГАРАНТИЯ ПРАВ ЛИЧНОСТИ В УГОЛОВНОМ ПРОЦЕССЕ КАК ЦЕЛЬ ПРАВОСУДИЯ

# РЕЗЮМЕ

Теоретические и практические проблемы процессуального положения личности в уголовном процессе считаются одним из важных вопросов, находящихся в центре внимания уголовно-процессуальной науки и практики правоприменения. Проблема обеспечения прав и законных интересов лиц, вовлеченных в сферу уголовного процесса, сегодня более актуальна, чем в прошлом, и в настоящее время является одной из главных обязанностей правосудия. Основная задача диссертационной работы состоит в исследовании проблемы обеспечения прав личности в уголовном процессе в качестве цели правосудия. Диссертационная работа состоит из введения, трёх частей и списка используемой литературы.

Во введении даётся общая характеристика диссертации.

В первой главе исследуются вопросы конституционного статуса личности и его отраслевого компонента - уголовно-процессуального статуса, содержание конституционного статуса личности, и его составные элементы.

Вторая глава посвящена исследованию статуса центральных фигур процесса, понятию законодательства, существующих прав и обязанностей, прошлой и современной практики, влияния прошлых стереотипов на уголовно-процессуальную практику современного мира, вопросы имплементации прогрессивной практики передовых стран мира в уголовно-процессуальной практике Азербайджана, пробелов в действующем законодательстве и поиску путей их устранения.

В двух соответствующих параграфах третьей главы исследуются следующие проблемы: вопросы защиты прав личности в связи с применением мер принуждения и вопросы усовершенствования процессуально-правовых гарантий в уголовно-правовом производстве.

Теоретический анализ проблем, составляющих тему диссертации, рассматривался в во взаимосвязи с правоприменительной. Сделанные в диссертации обобщения и заключения способствуют дальнейшему развитию правотворческой деятельности, укреплению правовых норм, усовершенствованию судебной практики.

# THE GUARANTEE OF RIGHTS OF INDIVIDUALS IN THE CRIMINAL PROCESS AS A PURPOSE OF JUSTICE

## SUMMARY

Theoretical and practical problems of the individual's procedural capacity in the criminal proceedings appear to be among the primary issues in the focus of criminal procedural law and practice. Problem of securing rights and lawful interests of individuals brought in the field of criminal proceedings has more relevance and serves as one of the important duties of the judiciary in comparison with any earlier period of time.

This thesis research contains introduction, three chapters and reference list. Introduction summarizes the actuality of theme, the level of working-out of the subject matter in theory, the scientific novelty of the research and main issues of the thesis, the scope and subject, methodology, scientific and practical basis, theoretical and practical importance of the research.

Main objective of the thesis is the analysis of the problem of securing of individual's rights in the criminal proceedings as the purpose of administration of justice.

The first chapter of the work addresses the issues related to individual's constitutional status and, as one of its types, individual's criminal procedural status, and reflects the content of individual's constitutional status and its elements.

The second chapter serves to research the status, legal concept and existing laws and obligations of the central figures of proceedings, past and actual practice, effects of past stereotypes in the practice of criminal proceedings in the contemporary period, questions of implementation of progressive practice of leading foreign countries, gaps in the legislation and ways of their filling.

In two paragraphs of the third chapter, the author analyses issues of protection of individual's rights in connection with application of measures of procedural restraint and issues of improvement of procedural-legal guarantees in the course of criminal justice, accordingly.

Theoretical analysis of the problems composing the theme of the research has been done in close connection with practice. It is envisaged that the generalizations and conclusions of the thesis shall serve to further development of lawmaking activity, strengthening of legal norms and adjustment of judicial practices.

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ФИЛОСОФИИ И ПРАВА**

---

*На правах рукописи*

**СААДАТ САМЕД КЫЗЫ НОВРУЗОВА**

# ГАРАНТИЯ ПРАВ ЛИЧНОСТИ В УГОЛОВНОМ ПРОЦЕССЕ КАК ЦЕЛЬ ПРАВОСУДИЯ

**Специальность: 5612.01 – «Уголовный процесс, криминалистика и судебная экспертиза; оперативно-розыскная деятельность»**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание ученой степени доктора философии по праву**

**Баку – 2016**